**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№274/4** **11 mart 2016-cı il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasına**
**Fəxri üzv qəbul edilməsi barədə**

Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 1.17-ci "Auditorlar Palatasına həqiqi, assosiativ və fəxri üzvlüklə bağlı tədbirlərin davam etdirilməsi" bəndinə və Palata Şurasının 2015-ci il 22 iyun tarixli 264/2 saylı "Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnamə barədə" qərarına uyğun olaraq, Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan şəxslər barədə Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış siyahını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan aşağıdakı şəxslərə Palatanın Fəxri üzvü statusu verilsin:

- Zülfüqarzadə Rza Əliskəndər oğlu - Avropa Birliyinin Azərbaycandakı Nümayəndəliyinin üzvü.
- Kərimov Qüdrət Osman oğlu - Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlar Şurasının sədr müavini, "Xəzər" ASC-nin sədri.

2. Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palataya Fəxri üzvlüyə qəbul məsələlərini bu Əsasnamənin müddəalarına uyğun həyata keçirsinlər.

3. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**